**Vergi hüquqpozmalarına qarşı mübarizə tədbirləri gücləndirilir**

2012-ci ilin 9 ayı ərzində vergi ödəməkdən yayınma, qanunsuz sahibkarlıq və aksiz markaları ilə markalanmamış malların satılması faktı üzrə ümumilikdə 322 sayda cinayət işi başlanmışdır. 262 cinayət işi üzrə ibtidai istintaq tamamlanmışdır ki, bu da 2011-ci ilin eyni dövrü ilə müqayisədə 27 iş çoxdur.

Hesabat dövründə istintaqı tamamlanmış cinayət işlərindən külli miqdarda gəlir əldə etmə və vergidən yayınma, xeyli miqdarda vergidən yayınma, aksiz markaları ilə markalanmamış malların satılması, qanunsuz sahibkarlıq, özgə əmlakını mənimsəmə yolu ilə talama faktı üzrə ümumilikdə 62 nəfər barəsində 58 iş baxılması üçün ittiham aktı ilə aidiyyəti məhkəmələrə göndərilmiş və 204 işin icraatına xitam verilmişdir. İcraatına xitam verilmiş cinayət işlərindən 150 iş üzrə bir sıra müəssisələrin rəhbərləri və fiziki şəxslər yayındırdıqları vergiləri (23 iş üzrə külli miqdarda) ibtidai istintaq zamanı tamamilə ödədiklərinə görə barələrində olan cinayət işinə xitam verilmiş, 9 milyon 102,6 min manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin olunmuşdur.

Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından yayınan, fəaliyyətləri barədə bəyannamə təqdim etməyən və əmlakın siyahıya alınmasına maneçilik törədən 774 nəfər vergi ödəyicisi müvafiq vergi orqanlarına təqdim edilmişdir. Hesabat dövründə 13 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Vergi hüquqpozmalarına yol vermiş şəxslər barəsində qanunda nəzərdə tutulmuş qaydada mübarizə tədbirləri davam etdirilir.